# *Gürcü ekspert:* "Yaşıl Enerji Dəhlizi" haqqında Bakıda imzalanmış memorandumun böyük və xüsusi əhəmiyyəti var"

**"Bakıda Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında imzalanmış "Yaşıl Enerji Dəhlizi" haqqında memorandumun təkcə bizim ölkələrimiz üçün deyil, ümumilikdə Avropa və Asiya ölkələri üçün böyük və xüsusi əhəmiyyəti var".**

Bu sözləri AZƏRTAC-a Gürcüstanın "Xalqın gücü" partiyasının deputatı, ekspert David Kartvelişvili söyləyib.

Onun sözlərinə görə, Gürcüstanı və Azərbaycanı Avropa İttifaqının sağlam hissəsi və onun şərq tərəfdaşları ilə birləşdirən məhz belə layihələrdir. Bu və digər irimiqyaslı enerji, nəqliyyat və liogistika layihələri bizim ölkələrimizin dünyada rolunun artmasına və mövqelərinin daha da möhkəmlənməsinə xidmət edir. Ekspert deyib: "Aprelin 4-də Bakıda Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında "Yaşıl Enerji Dəhlizi" haqqında memorandum imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyev vurğulayıb ki, 2030-cu ilə qədər xarici investorlarla günəş və külək-elektrik stansiyaları üzrə imzalanan müqavilələr Azərbaycana 6 giqavat gücündə külək və günəş enerjisi verəcək. "Dəniz külək enerjisinin inkişafı" mövzusunda dəyirmi masada Rumıniyanın energetika naziri Sebastian-İon Burduja deyib ki, layihənin dəyərini 10 milyard avro olaraq qiymətləndirilib və xərclərin əhəmiyyətli hissəsi Avropa Birliyinin qrantları hesabına qarşılanacaq. Bu, çox böyük uğur olacaq və bizim potensialımızı daha da artıracaq".

"Bizim ölkələrimizi Avropa İttifaqının sağlam hissəsi və onun şərq tərəfdaşları ilə birləşdirən məhz bu real siyasət və geoiqtisadiyyatdır", - deyə David Kartvelişvili vurğulayıb.

Azərbaycan.- 2025.-6 aprel (№ 66).- S.2.